cür davranmışdı. Çünki şəhadətnamə göydən yerə düşəndə, oğlan birinci ayaqları altındakı şəhadətnaməyə, sonra da gözlərini qıyaraq günəşə tüpürdü. Hələ hirsi soyumayıb, arxaya çevrilib məktəbin giriş pilləkənlərinə də tüpürdü və "əlvida, iyrənc illərim" deyə qəhqəhə çəkdi, qaçaraq ordan uzaqlaşdı. Zamanla məktəb də, günəş də bu hərəkətinə görə ondan küsdü. Uzun illər sonra oğlan ən gözəl vaxtlarının bu məktəbdə olduğunu, günəşin məktəb illərində daha gözəl parıldadığını anladı və keçmişindən üzr istəmək üçün dəfələrlə ora geri döndü, özü də öz olmayan uşaqlarını məktəbdən götürmək bəhanəsi ilə həmin məktəbə gəlib getməyə başladı. - Kişi bunu deyib gözlərini yuxarı zillədi - Amma onu məktəbin qapısı ağzından heç kim içəri buraxmırdı. Bir gün bu oğlan məktəbin içinə girdi və o illəri doya-doya yaşamadığı üçün dərin peşmançılq hissi keçirdi. Amma keçmiş o qədər vəfalı idi ki, onu qucaq açıb sevgiylə qarşıladı. Günəş də oğlanla barışdı. O gündən sonra oğlan daha keçmişə boylanmırdı, bütün günlərini o qədər sevgiylə yaşayırdı ki, yeni günü yaşamaq həyəcanından, dünənki günü xatırlamağa vaxt tapmırdı". - Kişi ayağa qalxıb, ona baxan Fimara göz vurdu və balaca Fimarın əlindən tutub - "Gedək" - dedi.

- Maraqsız nağılıydı.

- Ha ha ha ha... Məncə də.

- Baba, ölsə, mən Perlanı harda basdırım?! - Banu babasının əlindən tutub dedi.

- Sən onu illər sonra məktəbin darvazası ağzındakı şam ağacının altında basdıracaqsan, mən buna əminəm!

- O çox şirindi!

- O keçmişin ən kədərli xəbərçisidi!

Onlar pilləkənlərlə aşağı düşdülər, pişik də ağzında pomidorla onların arxasınca gəldi. Fimar üçüncü mərtəbənin pilləkənlərində dayanıb, onların ayaq səslərin dinləyirdi. Bu vaxt məktəbin zəngi vuruldu. Bütün mərtəbələri uşaqların səsi bürüdü. O, qaçışan şagirdlərə dəyə-dəyə məktəbin binasından çıxıb, darvazaya doğru irəliləyirdi. Ağ pişik xəstə görkəmini dəyişmiş, daha gümrah və gözəl halda onun yanından qaçıb, ağzındakı pomidoru dişləri arasında möhkəm sıxaraq, hündür şam ağacına dırmaşdı və pomidoru ona baxan Fimarın ayaqları altına atdı. Fimar əyilib əzilib, partlamış, suyu süzülən pomiduru götürüb, burnuna yaxınlaşdırdı. Pomidor anasının eyvanda ona verdiyi duzlanmış pomidor kimi qoxurdu. Gülümsünərək başını yuxarı qaldırıb ağ pişiyə baxdı. Pişik şirin nəzərlərlə ona baxıb, bir dəfə myoldadı.

- Myoo.

O, pomidoru səliqəylə səkinin üstünə qoyub, əliylə şam ağacına sığal vurub, darvazadan çölə çıxdı. Addımlarını saxlayıb gözlərini dalğınlıqla burnu məktəbin darvazasına tərəf dayanmış, pəncərələri açıq buraxılmış avtomobilin içinə zillədi. Avtomobilin magnitofonunda Rasim Müzəffərlinin ifasında mahnı səslənirdi:

*Bir batmış gəmiyəm indi mən,*
*Suların altında yatmışam.*
*Qorxmuram tufandan, küləkdən,*
*Sevməyin daşını atmışam.*
*Nələr-nələr üzür qəlbimdə,*
*Sevməyi bilməyən nə bilər?*
*Rəqqaslartək süzür üstümdə*
*Fələkət bilməyən sevgilər...*

O, özü yaşda olan valideynlərin arasıyla məktəbin tinini döndü, musiqi səsi hələ də eşidilirdi, qoltuğundakı qəzetləri yolun sağındakı "Xəngəl" restoranının ağzına qoyulmuş zibil vedrəsinə atdı, siqaret yandırıb, tüstüsünü başının üstünə üfürə-üfürə gözdən itdi.

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 30 sentyabr.- S. 45.- N- 36.